**Əminə Cəfərova,**
*Azərbaycan Milli Kitabxanasının elmi katibi,*
*BDU-nun dissertantı*
*amina.c@anl.az*

# MİLLİ BİBLİOQRAFİK UÇOT: MÖVCUD VƏZİYYƏT VƏ İNKİŞAF TENDENSİYALARI

***Xülasə:*** *Məqalədə milli biblioqrafiyanın əhəmiyyəti, cari və retrospektiv biblioqrafiya, milli biblioqrafiyanın uçotunun əhəmiyyətindən danışılır, Azərbaycan mətbuatının və nəşr məhsullarının arxiv fondunun yaradılması işinin nizama salınması məqsədilə görülən işlərdən, dünya təcrübəsinə əsaslanaraq mükəmməl mexanizmin hazırlanmasından bəhs edilir.*

***Açar sözlər****: milli biblioqrafiya, cari biblioqrafiya, milli biblioqrafik uçot, Milli Kitabxana, məcburi nüsxə*

Hazırda sənədlərin fasiləsiz olaraq kəmiyyət və keyfiyyət artımı onlardan səmərəli istifadə etməyi olduqca çətinləşdirir. Ardıcıl, məqsədyönlü və sistemli informasiya üçün lazım olan sənədlərin əldə edilməsi və dəqiq seçilməsi bu gün olduqca aktualdır. Bunu təmin edən köməkçi vasitəyə böyük ehtiyac yaranır. Sənədlər və informasiya tələbatçıları arasında bəşəriyyətin topladığı möhtəşəm sənəd kütləsindən daha mütərəqqi, operativ istifadə olunmasına təsir göstərən belə vasitəçilərdən biri də biblioqrafiyadır.

Müxtəlif dillərdə çap olunmuş nəşrlər vasitəsilə cəmiyyətin strukturu, insanların həyatında mühüm rol oynayan adət-ənənələr, kənd təsərrüfatının xüsusiliyi, elm, təhsil və ədəbiyyatın mühümlüyü, müasir yazıçı və siyasətçilər haqqında məlumat, ölkənin inkişafında ümumi və dini tendensiyaları yalnız milli biblioqrafiya vasitəsilə öyrənmək olar. Ölkənin tarixi inkişaf prosesində onun ərazisində yaranmış bütün sənədlər haqqında universal biblioqrafik məlumatın hazırlanmasını və fəaliyyətini təmin edən məhz milli biblioqrafiyadır.

Milli biblioqrafiya müəyyən ölkənin və ya xalqın yaradılmış və ya nəşr olunmuş sənədlərinin uçotudur. Milli biblioqrafiya anlayışına cari milli biblioqrafiya və retrospektiv milli biblioqrafiya daxildir. Onların qarşılıqlı sıx əlaqəsinə baxmayaraq, hər ikisinin inkişaf istiqaməti, vəzifələri fərqlidir. Cari milli biblioqrafiya biblioqrafiyanın funksional məqsəd və xronoloji əlamətə görə təsnifləşdirilməsi ilə bağlıdır. Bu biblioqrafiya yeni meydana gələn sənədlər haqqında ardıcıl məlumat vermək funksiyasını yerinə yetirir və tələbatçılara öz

sahələrində sənəd axınını daim izləmək, bu axında hərtərəfli istiqamətlənmək imkanı yaradır. Bu, cari biblioqrafik informasiyanın dolğunluğuna və operativliyinə, sənədin meydana gəlməsi ilə informasiyanın çatdırılması arasındakı fasilənin minimuma endirilməsinə səy göstərilməsini tələb edir. Cari milli biblioqrafiya çap məhsulunun statistikası üçün yeganə etibarlı mənbədir. O, ölkədə biblioqrafiyanın digər sahələrinin, ilk növbədə xüsusi biblioqrafiyanın inkişafı üçün baza rolunu oynayır. Cari milli biblioqrafiya ölkənin maraq və xüsusiyyətlərini özündə mütləq şəkildə əks etdirməlidir. Ölkə ərazisində çapdan çıxan bütün kitab, broşür, ardı davam edən nəşrləri və digər çap məhsullarını yalnız cari milli biblioqrafiya əhatə edə bilər.

Retrospektiv milli biblioqrafiya isə müəyyən dövr ərzində milli nəşriyyatların fəaliyyətini yekunlaşdırır və maddi irsin sənədli modelini yaradır. Retrospektiv milli biblioqrafiyanın daha tam və dəqiqliyini uzun müddət ərzində cari uçot orqanlarında toplanmış məlumatlar təmin etmiş olur. Retrospektiv milli biblioqrafiyanın əsas xüsusiyyəti müəyyən zaman kəsiyində meydana gələn sənəd kütləsi haqqında dolğun informasiya verməkdən ibarətdir. Elmi-tədqiqat, idarəetmə və istehsalat sahəsinin biblioqrafik informasiya təminatında elmi-köməkçi retrospektiv biblioqrafik vəsaitlər də mühüm rol oynayır, elmi-tədqiqatçıların və başqa yüksək ixtisaslı mütəxəssislərin öz araşdırmalarında retrospektiv biblioqrafik axtarışlara da böyük ehtiyaclar var.

Milli biblioqrafiyanın tam əhatə olunması üçün formasından və növündən asılı olmayaraq ölkə ərazisində bütün nəşrlərin, o cümlədən çap əsərlərinin, audio-video materialların, elektron resursların vahid qeydiyyatı vacibdir. Ənənəvi sənədlər kimi elektron sənədlərin də vahid qeydiyyatının aparılması zəruri və qarşıda duran mövcud problemlərdəndir.

Milli biblioqrafiyanın tam və dolğun əhatə olunması həm də nəşr tariximizin öyrənilməsinə, nəşrlərin statistik uçotunun aparılmasına xidmət edir. Bunun üçün bütün sənədlərin məcburi nüsxəsinin alınması zəruridir.

1998-ci ildə qəbul edilmiş “Kitabxana işi” haqqında Azərbaycan Respublikasının Qanununun “Kitabxanaların pulsuz məcburi nüsxələrlə təchizatı” adlı 15-ci maddəsində deyilir:

“Milli Kitabxana, qanunvericilik və müvafiq icra hakimiyyəti orqanlarının kitabxanaları, respublika əhəmiyyətli elmi-sahəvi kitabxanalar və Bakı Dövlət Universitetinin kitabxanası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilmiş qaydada ölkədə nəşr edilən çap məhsullarının məcburi nüsxələrini almaq hüququna malikdir. Dövlət və qeyri-dövlət nəşriyyatları, nəşriyyat fəaliyyəti ilə məşğul olan poliqrafiya müəssisələri və digər hüquqi şəxslər tərəfindən buraxılan çap məhsullarından Milli Kitabxanaya 4 pulsuz məcburi nüsxə, qanunvericilik və müvafiq icra hakimiyyəti orqanlarının kitabxanalarına, respublika əhəmiyyətli elmi sahəvi kitabxanalara, Azərbaycan Milli Elmlər

Akademiyasının Mərkəzi Elmi Kitabxanasına və Bakı Dövlət Universitetinin kitabxanasına profilinə uyğun olaraq 2 pulsuz məcburi nüsxə, Azərbaycan Respublikasında nəşr olunan bütün qəzet və jurnal redaksiyaları isə 2 pulsuz məcburi nüsxə göndərməlidirlər".

Dövlətimizin mədəniyyətə, elmə, incəsənətə verdiyi yüksək qiymət, qayğı və diqqətə baxmayaraq təəssüf hissi ilə qeyd etməliyik ki, Qanunun qüvvəyə minməsindən keçən 18 il ərzində bir çox nəşriyyatlar, müəlliflər və kitab çapı ilə məşğul olan poliqrafiya müəssisələri Qanuna tabe olmur, çap etdirdikləri nəşrlərdən Milli Kitabxanaya məcburi nüsxə verməkdən boyun qaçırırlar.

Dövlət və qeyri-dövlət nəşriyyatları, nəşriyyat fəaliyyəti ilə məşğul olan poliqrafiya müəssisələri və digər hüquqi şəxsləri qanuna əməl etməyə dəvət etmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 20 oktyabr 2015-ci il tarixində İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi barədə Sərəncam imzalanmış, Sərəncamda İnzibati Xətalar Məcələsinə Maddə 192-1: Kitabxanaların pulsuz məcburi nüsxələrlə təchizatı üzrə tələblərin pozulması əlavə olunmuşdur. Maddəyə əsasən kitabxanaların pulsuz məcburi nüsxələrlə təchizatı üzrə tələblərin pozulmasına görə vəzifəli və hüquqi şəxslərə cərimə tətbiq edilmişdir.

Azərbaycan mətbuatının və nəşr məhsullarının arxiv fondunun yaradılması işini nizama salmaq üçün imzalanmış sərəncamdan irəli gələn məsələlərə aydınlıq gətirmək məqsədilə 2017-ci ilin fevral ayında Milli Kitabxanada Mədəniyyət və Turizm Nazirliyi, Mətbuat Şurası, Milli Kitabxana və Kütləvi informasiya vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu birgə Azərbaycan mətbuatının və nəşr məhsullarının arxiv fondunun yaradılmasının təkmilləşdirilməsi məsələlərinə dair qəzet və jurnal redaktorlarının və nəşriyyat direktorlarının respublika müşavirəsini keçirmişlər. Müşavirədə mətbu orqanlar, nəşriyyat və poliqrafiya evlərinin bundan sonra kitab işi dövriyyəsini qanunvericiliyin tələblərinndən irəli gələn qaydalar çərçivəsində həll etməli olması, bu sahədə görüləcək işlərin şəffaflığının təmin olunması məqsədilə məcburi nüsxə sisteminin formalaşdırılması qərara alınmışdır.

Statistikaya nəzər salsaq görərik ki, məcburi nüsxələrin alınmasında ildənilə artım müşahidə olunsa da, qəbul olunan Qanunlara, imzalanan sərəncamlara, dəfələrlə keçirilən müşavirələrə baxmayaraq bu mexanizmin tam işləmədiyini əminliklə söyləyə bilərik. Fikrimizi əsaslandırmaq üçün son 4 il ərzində təkcə Milli Kitabxanaya daxil olan nəşrlərin statistikasına nəzər salaq:

2014-cü ildə Milli Kitabxanaya **24 049 nüsxə ədəbiyyat,** 2015-ci ildə **20 060 nüsxə,** 2016 –cı ildə **24 929 nüsxə,** 2017-ci ilin altı ayı ərzində **11010** nüsxə ədəbiyyat daxil olmuşdur.

Bir sıra ölkələrdə kitabxana-informasiya sistemində Milli Kitabxanaların xüsusi rolu var. Bu xidmətlər müxtəlif ölkələrdə müxtəlif olsa da, bir qayda

olaraq məcburi nüsxələr əsasında elektron və çap məhsullarının formalaşdırılması, onların kataloqlaşdırılması və qorunması, əsas xidmətlərin təchizatı (biblioqrafik xidmət, informasiyanın təqdim olunması, fondun qorunması, sənədlərin verilməsi və s.), milli-mədəni irsin qorunması və inkişaf etdirilməsi, xarici nəşrlərin alınması, milli-mədəni siyasətin təşviqi vəzifələri eynidir.

Apardığımız tədqiqatlar göstərir ki, bir çox ölkələrdə milli kitabxanalar həm də milli biblioqrafik agentlik funksiyasını yerinə yetirir ki, bu halda kitabxanalar qiymətli resurslara: fonda və təcrübəli işçi heyətinə sahib olurlar ki, bu da milli biblioqrafik agentlik üçün çox faydalıdır. Milli biblioqrafik funksiyaları yerinə yetirmək üçün uyğun resurslarla təmin olunmaq vacibdir.

***Müxtəlif ölkələrdə bu agentliklər müxtəlif cür mövcuddur :birləşmiş və paylanılmış milli biblioqrafik agentliklər.*** Milli biblioqrafik uçotun qeydiyyatına cavabdehlik üçün müxtəlif növ sənədlərin qeydiyyatı idarələr arasında bölünə bilər: məsələn, çap məhsulları üçün milli kitabxana, televiziya verilişləri və filmlər üçün film arxivləri cavabdehdirlər. Müxtəlif sahələrə cavabdehlik mərkəzləşdirilmiş və paylanılmış qaydada yerinə yetirilə bilər. Bir çox ölkələrdə bir neçə kitabxana məcburi nüsxələr alır. Bu kitabxanalar öz aralarında milli biblioqrafiyanın formalaşdırılmasını bölüşdürə bilərlər. Birləşdirilmiş və ya paylaşdırılmış struktur paylaşdırılmış resursları səfərbər etməyə xidmət edir, milli biblioqrafiyanın qeydiyyatının aparılması istiqamətində ümumi məqsədə istiqamətləndirir. Vəzifələrin bölünməsi isə məcburi nüsxələrin yayılmasına və idarə olunmasına imkan verir. Lakin, paylaşdırılmış sistemdə ardıcıllığı və standartı qorumaq çətinləşir. Güclü rəhbərlik və sıx əlaqə ümumi məqsədlərin nailiyyətinə və vahid dəyişikliklərin vaxtında tətbiq olunması üçün vacibdir. Bu problemlərə baxmayaraq birləşmiş model zamanla daha çox tələb olunana çevriləcək.

Heç bir təşkilat bütün materialları özündə toplaya bilməz. İdarəedən təşkilatlar vəzifələrin aydın bölünməsini, funksiyaların yerinə yetirilməsinə nəzarəti, rəhbərlikdən fəaliyyətləri barədə hesabatı təmin etməlidirlər. Milli agentliklər biblioqrafik standartların həyata keçməsinə, tətbiq olunmasına cavabdehdirlər. Biblioqrafik standartlar üzrə məsuliyyət isə çox vaxt biblioqrafik agentliklərin üzərinə düşür.

Yuxarıda deyilənləri nəzərə alaraq ölkə üzrə vahid milli biblioqrafik uçotun həyata keçirilməsi və məqsədyönlü fəaliyyət mexanizminin təminatı bu gün Azərbaycan cəmiyyəti üçün çox aktual problemlərdən biri kimi tədqiqata cəlb edilmişdir. Tədqiq etdiyimiz sahə üzrə mövcud boşluqları nəzərə alaraq dünya təcrübəsinə əsaslanaraq bir sıra tövsiyələr verilməsi məqsədəuyğun olardı. Məsələn, bir sıra xarici ölkələrin bu sahədəki təcrübəsinin öyrənilməsi əsasında ölkə üçün məcburi nüsxə mexanizminin təkmil modelinin yaradılması.

**Ədəbiyyat**

1. "Kitabxana işi" haqqında Azərbaycan Respublikasının Qanunu /Kitabxana işinə dair rəsmi sənədlər: (Qanun və qanun qüvvəli normativ hüquqlu sənədlər toplusu).- Bakı, 2015.- s. 40
2. Azərbaycan Kitabxana Ensiklopediyası.- Bakı: [M. F. Axundzadə adına Milli Kitabxana], 2015.- 630 s.
3. Əliyev Z. Azərbaycan biblioqrafiyasının tarixi.- Bakı: Bakı Universiteti nəşriyyatı, 2007.- 190s.
4. Национальная библиография в электронную эру: руководство и новые направления развития.- Мюнхен, 2009.- 132 с.

## Национальный библиографический учет: текущая ситуация и тенденции развития

***Резюме:*** *В статье говорится о ценности национальной библиографии, о текущей и ретроспективной библиографии, о значении национального библиографического учета. Также затрагиваются вопросы работы по организации архивного фонда азербайджанской печати и печатных изданий. Принимая во внимание мировой библиотечный опыт, в работе также говорится о подготовке всеохватывающего механизма национального библиографического учета.*

***Ключевые слова***: *национальная библиография, текущая библиография, национальный библиографический учет, Национальная Библиография, обязательные экземпляры*

## National bibliographic scope: the current situation and development tendencies

***Abstract:*** *The article provides information about the importance of the national bibliography and national bibliographic accounting, current and retrospective bibliography. It also gives information about the work done for the purpose of regulating the establishment of the archive fund of the Azerbaijani press and publication, and developing perfect mechanism based on the world experience.*

***Key words:*** *national bibliography, current bibliography, national bibliographic accounting, National Library, mandatory copy*